

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 168 (21.320)

28 avqust 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni yaşayış binaları əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırır, rahatlığını təmin edir

*Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı bütün sahələri əhatə edir. Son 20 ildə nəzərəçarpan dəyişikliklərdən biri də muxtar respublikamızın şəhər və qəsəbələrindəki yaşayış binalarının yenidən qurulması və yeni yaşayış komplekslərinin yaradılmasıdır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" bu istiqamətdə həyata keçirilən tədbirlərə stimul verib. Ötən müddətdə proqramın icrası istiqamətində görülən işlər muxtar respublika paytaxtında əhəmiyyətli dəyişikliklərə səbəb olub. Proqramda xüsusi diqqət yetirilən sahələrdən biri də yaşayış binalarının tikintisi və təmiridir. Ötən dövr ərzində Naxçıvan şəhərində yeni yaşayış binaları tikilib, mövcud binalarda əsaslı şəkildə yenidənqurma işləri aparılıb. Bu istiqamətdə görülən işlər bu gün də davam etdirilir.

Hazırda Heydər Əliyev prospektində zirzəmi ilə birlikdə səkkiz mərtəbədən ibarət olacaq yeni yaşayış binasının tikintisi davam etdirilir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən tikilən yaşayış binasının təməli cari ilin may ayının əvvəlində qoyulub. Bina hazır olduqdan sonra zirzəmi hissədə 210 kvadratmetrlik anbar və foye yerləşəcək. Birinci mərtəbədə isə mağazalar fəaliyyət göstərəcək. Digər mərtəbələrin hər birində isə bir mənzil yerləşməklə bina 6 mənzilli olacaq. 220 kvadratmetrlik mənzillərin hər birində üç yataq otağı, bir salon, foye və mətbəx yerləşəcək. Müasir üslubda inşa edilən binada hər mənzilin üç eyvanı olacaq. Binanın birinci və ikinci mərtəbələrində hörgü işləri başa çatdırılıb, üçüncü mərtəbədə beton-qəlib işləri yekunlaşıb, dördüncü mərtəbədə isə qəlib qurulur.



Naxçıvan şəhərinin mərkəzi küçələrindən olan Atatürk küçəsində inşa olunmuş yeni yaşayış binası isə öz əzəməti ilə göz oxşayır. Zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olan binada tikinti işlərinə 2013-cü ilin fevral ayından başlanılıb. 54 mənzilli bu yaşayış binasında artıq işlər yekunlaşdırılıb.

Şəhərin Əliqulu Qəmküsar küçəsində yerləşən yeni yaşayış binası isə səkkiz mərtəbədən ibarət olacaq. Bu obyektdə işlərə cari ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən hazırda binanın altıncı mərtəbəsində hörgü, yeddinci mərtəbəsində isə beton-qəlib işləri aparılır. Yaşayış binasında 32 mənzil yerləşəcək. Mənzillərdən 8-i üçotaqlı, 24-ü isə ikiotaqlı olacaq.

Yaşayış binalarının əsaslı şəkildə yenidən qurulması da diqqət mərkəzində saxlanılır. Belə ki, hazırda "İstiqlal" küçəsindəki 93 nömrəli binanın yenidən qurulması "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə olunub. Binanın yenidən qurulmasına iyun ayının əvvəllərindən başlanılıb. Zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olan binanın eni üç metr artırılıb, zirzəmisi təmizlənib, qısa müddət ərzində arakəsmələr hörülüb. Hazırda yaşayış binasının sonuncu mərtəbəsində beton-qəlib işləri aparılır, daxildə isə yeni pəncərələrin salınması davam edir. Müasir üslubda qurulan binanın ön hissəsində isə üzləmə işləri aparılır. Mənzillərin sahəsinin artırılması burada yaşayan sakinlərin rahatlığını təmin edəcəkdir.

Naxçıvan şəhərinin "Əlincə" məhəlləsində yerləşən 18 nömrəli yaşayış binasında da əsaslı yenidənqurma işləri aparılır. Qısa müddət ərzində binanın ön tərəfində olan eyvanlar sökülərək müasir görkəmə salınıb, dam örtüyü dəyişdirilib. Bundan əlavə, rabitə və elektrik xətlərinin çəkilişi başa çatdırılıb. Daxildə suvaq işləri aparılıb, pilləkənlərə daş döşənib. Hazırda birinci mərtəbədə pəncərələr dəyişdirilir, digər mərtəbələrdə isə bu iş yekunlaşıb. Yaşayış binasının fasadı müasir memarlıq elementləri ilə zənginləşdirilib. Hazırda üzləmə işləri davam etdirilir. Yenidənqurma işlərini "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər.

**Səbuhi HƏSƏNOV**

## Dövlət Yol Polisi İdarəsində sığorta işinin təşkili ilə bağlı tədbir keçirilib



Avqustun 27-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib. Tədbiri Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayev açaraq bildirib ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin bağlanmasına nəzarət işi qanunla dövlət yol polisinə həvalə olunub. Bu işin aparılması üçün dövlət yol polisinin əməkdaşları ötən dövr ərzində Dövlət Sığorta Agentliyi ilə birgə tədbirlər keçirib. Vurğulanıb ki, dövlət yol polisi muxtar respublikamızda hərəkətin təhlükəsizliyinin təmin olunması ilə yanaşı, mülki məsuliyyətin icbari sığorta olunmasında da mühüm vəzifə daşıyır. Muxtar respublikada yaradılan avtomobillərin müayinə mərkəzləri bu işin təşkilində mühüm rola malikdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikada sığorta sahəsində görülmüş işlərin ümumi sosial-iqtisadi inkişafın nəticəsi olduğunu qeyd edərək sığortanın əhəmiyyətini vurğulayıb, avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin sığortasının vacibliyindən danışıb. Bildirib ki, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti olub. Həmin müşavirədə verilmiş tapşırıqlar muxtar respublikada digər sığorta növləri kimi, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının da həyata keçirilməsində mühüm rol oynayıb. Baş direktor diqqətə çatdırıb ki, son dövrlərdə avtomobillərin müayinə mərkəzlərinin yaradılması mülki məsuliyyətin icbari sığortasının da aparılması üçün yaxşı imkanlar yaradıb. Bu mərkəzlərdə sığorta agentliyinin nümayəndələri də fəaliyyət göstərirlər. Bu sahədə təbliğat-maarifləndirmə işlərinin aparılması zəruridir.

Çıxışda qeyd olunub ki, ötən müddət ərzində dövlət yol polisi ilə birgə aparılmış işlər nəticəsində muxtar respublikada avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin sığorta etdirilməsi sahəsində xeyli iş görülüb. Belə ki, ötən yeddi ayda Naxçıvan Muxtar Respublikasında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 10978 ədəd müqavilə bağlanılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 900 müqavilə çoxdur. Mülki məsuliyyətini sığorta etdirmiş nəqliyyat vasitəsi sahibləri yol-nəqliyyat hadisəsi baş verdiyi halda üçüncü şəxslərə dəymiş zərər məbləğinin ödənilməsində sığorta ödənişlərindən istifadə edə bilərlər. Baş direktor yol-nəqliyyat hadisələrindən dəymiş zərərlərin ödənilməsində sığortanın mühüm sosial vəzifə daşıdığını bildirərək tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, avtonəqliyyat vasitələrinin tam sığortası sahəsində təbliğat və maarifləndirmə işinin əhəmiyyəti böyükdür.

Tədbirdə o da qeyd edilib ki, avtonəqliyyat vasitəsi sahibləri arasında hələ də mülki məsuliyyətini icbari sığorta etdirməyən vətəndaşlar vardır. Qarşıya qoyulan vəzifə isə ondan ibarətdir ki, Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir avtonəqliyyat vasitəsinin sahibi mülki məsuliyyətini icbari olaraq sığorta etdirsin. Bunun üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi birlikdə tədbirlər hazırlayıb həyata keçirməli və mülki məsuliyyətini icbari qaydada sığorta etdirməyən avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığortaya cəlb olunması məqsədilə qanunun verdiyi səlahiyyətlərdən tam istifadə olunmalıdır.

Tədbirin sonunda sığorta işinin aparılmasında fərqlənmiş Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarından 15 nəfərə pul mükafatları verilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayev yekun vurub.

**Əli CABBAROV**



## Şərur rayonunda keçirilən əmək yarmarkasına 297 boş iş yeri çıxarılmışdı

Avqustun 27-də Şərur rayonunda növbəti əmək yarmarkası keçirilmişdir. Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov bildirmişdir ki, muxtar respublikamızda məşğulluq məsələlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Çünki yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir.

Qeyd olunmuşdur ki, Şərur rayonunda sahibkarlığın inkişafı üçün yaradılmış münbit şərait, tikinti-quruculuq tədbirlərinin geniş vüsət alması, yeni istehsal sahələrinin yaradılması əhalinin məşğulluq məsələlərinin həll olunmasına müsbət təsir göstərir. İstər dövlət, istərsə də özəl müəssisələrin müxtəlif sahələr üzrə işçi kadrlara olan ehtiyacı da məhz keçirilən əmək yarmarkaları vasitəsilə təmin edilir.

Məlumat verilmişdir ki, əmək yarmarkasına 39 təşkilatdan 297 boş iş yeri çıxarılmışdır.

Əmək yarmarkasına müraciət etmiş Eldar Ələkbərov keçirilən tədbirin işaxtaranlar üçün yaxşı fürsət olduğunu bildirmiş, təşkilatçılara minnətdarlıq etmişdir.

Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Kamal Ələkbərov vurğulamışdır ki, əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində muxtar respublikada müvafiq tədbirlər həyata keçirilir. Xüsusilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın uğurlu icrası yoxsulluğun nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarmışdır.

Bildirilmişdir ki, həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Əmək yarmarkasında 41 nəfərə işə göndəriş verilmiş, 3 nəfər isə peşə hazırlığı kursuna cəlb edilmişdir. Tədbirin gedişi zamanı muxtar respublikamızda işsizliyin aradan qaldırılması, əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirləri əks etdirən slayd nümayiş etdirilmişdir.

**Elman MƏMMƏDOV**

**Qədim Naxçıvan torpağında yaşı ululardan ulu, igid, qəhrəman vətən övladlarının daşına, qayasına qanlarıyla tarix yazdıqları bir yurd yeri var. Xeyrin şərə qələbə çaldığı, düşmənin canına vəlvələ salan əzəmətiylə, qorxmaz insanlarıyla, yağının inadına onun gözü önündə salınan möhtəşəm tikililəri, bağları-bağatlarıyla, qoynunda vətən uğrunda canlarından keçmiş şəhidlərinə yer vermiş bu diyara tarix Sədərək adı verib. O Sədərək ki, Naxçıvan üçün ən çətin günlərdə düşmənin qarşısında səddə çevrilib. O yurd yeri ki, xalqımızın ən ali dəyərlərindən, qeyrət və şücaət daşlarından qurulan qalasının qapılarını düşmən üzünə açmayıb, döyüşüb, mübarizə aparıb və ən nəhayətində qalib gəlib. İgid ərənlərimiz, fədailərimiz bu məkanın həm vətən torpaqlarının ilk sərhədi, həm də son sərhədi olduğunu ən yüksək səslə hayqırıblar və sübuta yetiriblər ki, vətən sərhədi ana laylası, ana südü kimi müqəddəsdir, bu müqəddəsliyə heç kim xələl gətirə bilməz.**



# Sərhəd bölgəsinin dünəni və bu günü

## *Sədərək rayonunun yaradılmasından 25 il ötür*

### *Yurdumun sərhədində alınmaz istehkamdı Sədərək...*

1990-cı il Sədərək hadisələrinə qədər ermənilər bu torpağın naxçıvanlılar, eləcə də sədərəklilər üçün nə qədər əziz və müqəddəs olduğunu anlamamışdılar, bu torpağın insanlarına müharibədə zəif rəqib kimi baxmışdılar. Elə bilmişdilər ki, Sədərəyə yaxın azərbaycanlıların yaşadığı kəndlərdə bir neçə qanlı qırğın törətdikdən sonra burada da müqavimət qırılacaq, insanlar torpaqlarını tərk edib gedəcəklər. Ancaq düşündüklərinin tam əksi ilə qarşılaşdılar. 1990-1993-cü illərdə ermənilər Sədərəyə 14 dəfə hücum etdilər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də oldu. 1990-cı ilin 19 yanvarında Sədərəyin müdafiəsi zamanı 8 nəfər şəhidlik zirvəsinə ucaldı.

Həmin ilin mart ayında ermənilər Sədərəyə 300-ə yaxın top mərmisi atdılar, 500-ə yaxın evi, məktəb binasını, inzibati binaları, sosial obyektləri dağıtdılar. O illərdə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan Sədərəyə kömək gəldi. Döyüşlərdə 109 nəfər, eləcə də Sədərək rayonundan 52 nəfər şəhid oldu. Ancaq bütün bunlar xalqımızın mübarizə əzmini qıra bilmədi. Gecə-gündüz düşmən gülləsinə sinələrini sipər edən fədailər bilirdilər ki, geriyə bir addım belə atsalar, ermənilər bundan ruhlanaraq daha böyük qüvvə ilə hücum edəcəklər. Bu isə nəinki sədərəklilər, hətta bütün naxçıvanlılar üçün fəlakətlə nəticələnə bilərdi. Ona görə düşmənlə sərhəddə hər daş, hər qaya bir səngərə, qalaya, istehkama döndü. Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru, Sədərək döyüşlərinin iştirakçısı olan Vaqif Məmmədov deyir ki, 1990-cı il yanvarın 19-da ermənilər artıq Sədərəyi ağır silahlardan, toplardan atəşə tutmağa başladılar. Tofiq Nəsirovun həyatinə düşən top mərmisi onun Malik və Elvin adlı iki azyaşlı övladını şəhid etdi. Top mərmilərinin partlaması nəticəsində Heydərabadda, ümumilikdə, 6 nəfər şəhid oldu. Ərazidəki "Əyyub mağarası", "Cin təndiri", "Yetimlər", "Həsənqulu bağı", "Qaraağac", "Qurdbaba", "Nadirin düzü" adlanan məkanlar sədərəklilərin səngərinə çevrildi. Muxtar respublikanın bütün rayonlarından əli silah tutan hər kəs Sədərəyə köməyə gəldi. Naxçıvanlıların birliyi, həmrəyliyi həmin günlərdə Sədərəyi və ümumilikdə, qədim diyarı düşmən işğalından qorudu. 1993-cü il avqustun 13-də sonuncu döyüşdə ermənilər qeyrət qalasını qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini bir daha anladıqları üçün daha bu kəndə hücuma keçməyə cəsarət etmədilər. Gündən-günə güclənən dövlətimiz, qüdrətli ordumuz isə bu gün nəinki bizi düşmənin hücumlarından müdafiə etməyə, hətta işğal altında olan torpaqlarımızı da azad etməyə qadirdir.

Sonralar Heydərabad qəsəbəsində sakinlərlə görüşən zaman ümummilli lider Heydər Əliyev o ağır günləri yada salaraq demişdir: ***"Yəqin xatirinizdədir ki, 1992-ci il mayın 17-dən 18-nə keçən gecə buraya ermənilər hücum etdilər. Orada, dağın üstündə postlara, Mil təpəsinə hücum etdilər. Bizim ordakı əsgərlərimizdən 8 nəfər həlak oldu. Yadınızdadırsa, orada 40 gün atışma getdi. O vaxt mən bütün dünyaya haray saldım. Biz körpü tikmişdik. Hələ körpü açılmamışdı. Ancaq o körpüdən Türkiyədən nə qədər müxbirlər tökülüb Naxçıvana, o döyüş yerinə gəldilər. Onda bizim nəyimiz vardı? Ordumuz yox idi, silah-sursatımızı oradan-buradan yığmışdıq. Amma o döyüşdə sədərəklilər, yəni naxçıvanlılar – təkcə sədərəklilər yox, onda mən buraya bütün Naxçıvanı tökmüşdüm, hamı bir yerdə döyüşürdü, – onları susdurdular..."***

### *Heydərabad ulu öndərimizin adına layiq şəkildə qurulub*

Yaxın keçmişə qısa bir ekskurs edərək bildirək ki, ümummilli liderimiz Heydər Əliyev 1978-ci il oktyabrın 15-də respublika rəhbəri kimi Naxçıvana ikinci dəfə səfər edərkən Sədərək kəndi ilə Ermənistan arasındakı boş ərazilərdə nümunəvi yaşayış qəsəbəsinin salınması barədə tapşırıq vermişdi. Pribaltikada hazırlanan layihə əsasında 1980-ci ilin əvvəlində salınmasına başlanan indiki Heydərabad qəsəbəsi həmin il 75 ailənin yurd yerinə, ocağına çevrilmişdi. Sonralar bu hadisəni xatırlayan ulu öndər deyirdi: ***"Mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bir qəsəbənin salınması haqqında tapşırıq verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, "bu, bizimdir", "o bizimdir", – deyirdilər".***

Heydərabad qəsəbəsi ötən əsrin 90-cı illərinin əvvəllərində erməni təcavüzü nəticəsində tamamilə dağıdılaraq yaşayış üçün yararsız hala salınmışdı. 1997-1998-ci illərdə burada tikinti-quruculuq, abadlıq işləri aparılaraq həmin evlərin 75-i bərpa olunmuş və yerli əhalinin təşəbbüsü əsasında ulu öndər Heydər Əliyevin 75 illik yubileyi şərəfinə yaşayış məskəninə Heydərabad adı verilmişdi. Ümumiyyətlə, son 20 il ərzində qəsəbədə aparılan quruculuq işləri nəticəsində bura yeni görkəm alıb, əhalinin yaxşı şəraitdə yaşaması və işləməsi üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamı rayonun, eləcə də Heydərabad qəsəbəsinin inkişafında mühüm rol oynayıb. 15 oktyabr 2010-cu ildə Heydərabad qəsəbəsində aparılan quruculuq işlərinin tərkib hissəsi kimi



inşa olunan və yenidən qurulan mənzillərin orderlərinin sahiblərinə təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni mənzillərə köçəcək ailələri təbrik edərək demişdir: ***"Sədərək rayonu yaranandan sonra qısa müddət ərzində böyük inkişaf yolu keçərək rayon kimi formalaşmış, öz fəaliyyətini qura bilmişdir. Sədərək Azərbaycanla müharibə vəziyyətində olan işğalçı bir ölkə ilə sərhəddə yerləşir. Rayonun bu qəsəbəsinə ulu öndərimizin adı veriləndə Heydərabadda yaşayış lazımi səviyyədə deyildi. Ulu öndərimizin adını daşıyan qəsəbə isə onun adına layiq, yerləşdiyi əraziyə görə qala kimi möhkəm, eyni zamanda abad olmalı idi. Ulu öndərimizin adını daşıyan bu qəsəbə Azərbaycanda ən nümunəvi qəsəbədir. Ümummilli liderimizin yolunu uğurla davam etdirən cənab Prezidentin Sədərəyə, xüsusən bu qəsəbəyə qayğısı nəticəsində qəsəbə yenidən quruldu, sakinlərin məskunlaşması üçün lazımi şərait yaradıldı. Ulu öndərin adını doğrultmaq, yaşatmaq üçün qəsəbə daim diqqət mərkəzində olacaqdır. Sədərək rayonunda aparılan quruculuq işləri bir rayonun timsalında ümumən Azərbaycanda həyata keçirilən tədbirlərin göstəricisidir. Bu, o deməkdir ki, Azərbaycanın bütün bölgələri və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası inkişaf edir. Bu həm də onun göstəricisidir ki, Azərbaycanda sabitlik davam edir, iqtisadi inkişaf var. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görülür".***

Heydərabad qəsəbəsi dövlətimizin diqqət və qayğısı sayəsində inkişaf edir, çiçəklənir, ulu öndərimizin əsasını qoyduğu, muxtar respublika rəhbərinin uğurla davam etdirdiyi quruculuq siyasətindən maksimum bəhrələnir.

### *Sədərək rayonunda keçilən 25 illik yolun qısa tarixçəsi*

Sədərək 28 avqust 1990-cı ildə Şərur rayonunun tərkibindən ayrılaraq rayon statusu alıb. Rayonun sosial-iqtisadi inkişafının təməlinin qoyulması üçün ulu öndərimiz tərəfindən atılan əsas addımlardan biri 1992-ci ildə Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən "Ümid" körpüsünün tikilməsi, gömrük keçid məntəqəsinin yaradılması, Türkiyədən Sədərəyə yüksəkgərginlikli elektrik xəttinin çəkilməsi olub. 1995-ci ildən sonrakı dövrdə isə rayon davamlı inkişaf mərhələsinə qədəm qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 15 mart 2000-ci il tarixli Sərəncamı rayonda böyük uğurların qazanılmasına zəmin yaradıb. Rayon genişmiqyaslı quruculuq işlərinin, aqrar sahədə həyata keçirilən təxirəsalınmaz tədbirlərin ünvanına çevrilib. Burada fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılıb, rayon əhalisini çoxdan bəri narahat edən taleyüklü məsələlər öz həllini tapıb, məşğulluq probleminin həllində mühüm addımlar atılıb. Müasir yaşayış binaları həyata vəsiqə alıb, xidmət sahələri istifadəyə verilib, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb.



Bu gün rayonda fəaliyyət göstərən məktəblər, xəstəxanalar, mədəniyyət müəssisələri üçün yeni binalar tikilib. Əhalinin kommunal-məişət şəraitinin yaxşılaşdırılması yeni binaların istifadəyə verilməsi ilə yekunlaşdırılmayıb, rayon əhalisinin içməli suya, elektrik və təbii qaza olan tələbatının dolğun ödənilməsi məqsədilə təxirəsalınmaz işlər görülüb.

Əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biri də suvarma sistemlərinin təkmilləşdirilməsidir. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda bu sahədə də əsaslı tədbirlərin icrası nəzərdə tutulub. Muxtar respublikada dövlət proqramında müəyyənləşdirilən vəzifələrin uğurla həyata keçirilməsinin nəticəsidir ki, 2014-cü ildə Sədərək rayonunda yeni nasos stansiyası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılış mərasimindəki çıxışında demişdir: ***"Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülmüş, kənd təsərrüfatı məhsullarının istehsalı artmış, ərzaq təhlükəsizliyi təmin edilmişdir. Sədərək rayonunda nasos stansiyasının tikilməsi və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə görülən işlərin davamıdır. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış müqaviləyə əsasən, layihənin icrasına 5 milyon manata yaxın kredit ayrılmışdır. Layihədə nəzərdə tutulan tədbirlər keyfiyyətlə və qısa müddətdə başa çatdırılmış, yeni nasos stansiyası tikilmişdir. Bu da Sədərək rayonunda əkinəyararlı torpaqların 40 faizinin dayanıqlı suvarma suyu ilə təmin olunmasına imkan verəcəkdir. Eyni zamanda yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi yenidən əkin dövriyyəsinə qatılmışdır. Görülən bu işlər kənd təsərrüfatının inkişafına, məhsul istehsalının artmasına və əhalinin məşğulluğunun təmin olunmasına imkan verəcəkdir".***

Bəli, illər uzunu əhalinin qarşılaşdığı çətinliklərdən olan suvarma suyuna olan tələbatın dolğun ödənilməsi istiqamətində görülən işlər öz bəhrəsini verir, böyük vəsaitlər hesabına salınan kanallar, tikilən nasos stansiyaları, qazılan artezian quyuları vaxtilə susuz çöllərə həyat verir, insanları əkib-becərməyə, vətən torpağının bu parçasında güllük-gülüstanlıq yaratmağa ruhlandırır. Rayon sakinləri taxılçılıq, meyvə-tərəvəzçilik, heyvandarlıq, üzümçülük və digər sahələrdə böyük uğurlar əldə edir, muxtar respublikada məhsul bolluğu yaradılmasına öz töhfələrini verirlər. Vaxtilə düşmən mərmiləri düşən torpaqlar indi bərəkətli taxıl zəmilərinə çevrilib. Qürurverici hal bundan ibarətdir ki, bütün bu hadisələr düşmən səngərlərinin yaxın məsafəsində, mənfur ermənilərin gözü qarşısında baş verir. Bu, məncə, dövlətimizin güclü, qüdrətli olduğunun, Sədərəyin göz bəbəyi kimi qorunduğunun, müqəddəs vətən torpağının hər qarışının, hər daşının, hər qayasının güzəştə gedilməyəcəyinin sübutu, atəşkəs dövründə düşmənlə aparılan ideya-siyasi, psixoloji müharibənin qələbəsi, ən böyük təbliğatdır.

### *Ordumuz sabitliyin ən böyük təminatçısıdır*

Rayonun tanınan ziyalılarından olan Səməd Əliyev deyir ki, tarixboyu xalqımız qəhrəmanlıq ənənələri ilə ad-san çıxarıb, yadellilərə qarşı mərdliklə döyüşüb. Böyük sərkərdələr yetirən Azərbaycan xalqının çox yaxşı bir deyimi var: Ordun varsa, yurdun var. Doğrudan da, nizami ordu, mərd və qorxmaz oğullarımız olmasa, Naxçıvanı, eləcə də Sədərəyi nə qorumaq, nə də yaşatmaq olar. Bax bu yüksəkliklərdə (əli ilə yaxındakı təpələri göstərir) güclü ordumuz olmasa, arzularımız puça çıxar, çəkilən bütün zəhmətlər hədər gedər. Sonra əlavə edir: Əbəs yerə deməyiblər ki, torpağı əkib-becərmirsənsə qorumağına, qorumursansa əkib-becərməyinə dəyməz. Biz sədərəklilər 90-cı illərin əzab-əziyyətlərini də görmüşük, bu günün firavan həyatını da. Yaxşı ki, indi bizim yetəri qədər silahımız, düşməni qısa zamanda dəf edə biləcək ordumuz var. Ona görə də düşmənin lap yaxında olduğunu bilsək də, bundan heç kim narahatlıq keçirmir. Hamı bilir ki, bizə qarşı atılan hər bir güllənin cavabı veriləcək.

*Bəli, nə qədər qüdrətli Azərbaycanın döyünən ürəyi Naxçıvan, onun vətənpərvər oğulları var, bütün yurd yerləri kimi, Sədərək də yaşayıb var olacaq, çiçəklənəcək, düşmən qarşısında alınmaz qalaya çevriləcək.*

✍ **Səbuhi HÜSEYNOV**

***Yazı "Naxçıvan: müstəqillik illərində" gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

*Bu il avqustun 14-17-də Naxçıvan şəhərində İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin birinci "İstehsal və ixracat imkanları" sərgisi keçirilmişdir. Sərgi muxtar respublika əhalisi, eləcə də sahibkarlar tərəfindən maraqla qarşılanmışdır. Bu cür sərgilər əməkdaşlığın inkişafına əvəzsiz töhfələr verməklə yanaşı, həm də iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün yeni imkanlar açır.*

*İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələrin hazırkı səviyyəsi, birinci "İstehsal və ixracat imkanları" sərgisinin əhəmiyyəti barədə suallarımızı İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrəm cavablandırır.*

## Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əlaqələr inkişaf etdirilir



***– Cənab Baş konsul, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əlaqələr inkişaf etdirilir. Xüsusilə son illər tərəflər arasında imzalanan memorandumlar əlaqələrin möhkəmləndirilməsinə əsaslı zəmin yaratmışdır. Bu barədə nə deyə bilərsiniz?***

– Qeyd edim ki, hər iki ölkə – İran İslam Respublikası və Azərbaycan Respublikası arasındakı dostluq əlaqələri illər öncəsinə dayanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən İranın Qərbi Azərbaycan Vilayətinə səfər etmişdir. Səfər zamanı qarşılıqlı əlaqələrin inkişafını özündə əks etdirən memorandum imzalanmış, tərəflər arasında əməkdaşlığın əsası qoyulmuşdur. Sonrakı dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının Qərbi və Şərqi Azərbaycan vilayətlərinə səfərlər etmiş, bu zaman iqtisadi, mədəni, təhsil və idman sahələrində əməkdaşlığın inkişafını özündə əks etdirən memorandumlar imzalanmış, əlaqələrin möhkəmlənməsinə əsaslı zəmin yaranmışdır. Hazırda bu memorandumlar əməkdaşlığın genişləndirilməsinə dair iş planı hesab olunur. Eyni zamanda qeyd edim ki, Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlıq dairəsi təkcə qonşu vilayətlərlə məhdudlaşmır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müxtəlif vaxtlarda Tehrana səfərlər etmiş və səfər zamanı İran İslam Respublikasının məsul dövlət rəsmiləri ilə uğurlu görüşlər keçirilmişdir.

***– Əlaqələrin inkişafının göstəricisi kimi qarşılıqlı ticarət və sənaye sərgilərinin təşkili xüsusilə qeyd olunmalıdır. Bildiyiniz kimi, ilk belə sərgi 2011-ci ilin payızında Naxçıvan Muxtar Respublikasının iş adamlarının iştirakı ilə Urmiyada təşkil edilib. 2015-ci ilin 14-17 avqust tarixlərində isə Qərbi Azərbaycan Vilayətinin Naxçıvan şəhərində birinci "İstehsal və ixracat imkanları" sərgisi açılmışdır. İstərdik ki, belə sərgilərin əhəmiyyəti barədə danışasınız.***

– Sevindirici haldır ki, İranın yaxın vilayətləri və Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələr müxtəlif sahələrdə inkişaf etdirilir. Bu gün İranın qonşu vilayətlərindəki Araz və Maku Azad zonalarında, eləcə də Naxçıvan Muxtar Respublikasında sənayenin çiçəklənməsinin şahidi oluruq. Naxçıvanla qonşu olan vilayətlərdə müxtəlif istehsal və sənaye müəssisələrinin fəaliyyət göstərməsi, Naxçıvan Muxtar Respublikasında yeni istehsal sahələrinin, xüsusilə sənaye müəssisələrinin yaradılması, bunun nəticəsi olaraq daxili tələbatın ödənilməsi və müxtəlif ölkələrə məhsul ixracı tərəflərin qarşılıqlı olaraq bazarlarda iştirakına və mövcud imkanlardan istifadəyə zəmin yaradır. Qarşılıqlı sərgilərin təşkili yolu ilə istehsal və ixracat imkanlarının tanıtdırılmasının iki əsas məqsədi var. Birincisi, tərəflər arasında hakim olan dostluq əlaqələrinin dərinliyi qarşılıqlı olaraq bazarlarda iştirak imkanı yaradır. İkincisi də bu cür sərgilər təşkilatçı tərəfin imkanlarının və onun müasir inkişafının göstəricisidir. Naxçıvanlı iş adamları Urmiyada keçirdikləri sərgi və bu zaman nümayiş etdirilən məhsullar iranlılar tərəfindən rəğbətlə qarşılandı. Mənə verilən məlumata görə, sərginin elə ilk günündə bütün məhsullar satıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və Qərbi Azərbaycan Valisinin sərginin açılışında iştirak etmələri onun əhəmiyyətini daha da artırmışdı. Bu isə əlaqələrin dostluq prinsipinə əsaslandığının daha bir göstəricisidir.

Qərbi Azərbaycan Vilayətinin Naxçıvan şəhərində keçirilən birinci "İstehsal və ixracat imkanları" sərgisi də məhz bu baxımdan dəyərləndirilməlidir. Bu sərginin təşkili əlaqələrə hakim olan müsbət atmosferdən xəbər verir. Eyni zamanda belə sərgilərin təşkilinin davamına maraq olduğunu göstərir. Bu sərginin təşkili digər müsbət hadisələrlə də yadda qaldı. Belə ki, Naxçıvanda Qərbi Azərbaycan Vilayətindən gəlmiş nümayəndə heyəti səmimiyyətlə qarşılandı, iqtisadiyyat, kənd təsərrüfatı və gömrük sahələrində nümayəndə heyəti üzvlərinin naxçıvanlı tərəf-müqabilləri ilə görüşləri təşkil olundu. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri və Qərbi Azərbaycan Vilayətinin sənaye, mədən və ticarət təşkilatı rəhbərinin, o cümlədən hər iki tərəfin iş adamlarının iştirakı ilə geniş tərkibli iqtisadi forum keçirildi. Daha önəmlisi isə budur ki, bu qəbildən olan iclas və forumların gələcəkdə də davam etdirilməsi razılaşdırıldı, Naxçıvandan olan iş adamlarından ibarət nümayəndə heyəti Urmiyaya səfərə dəvət olundu.

***– Sərgidə Qərbi Azərbaycan Vilayətinin hansı emal və istehsal müəssisələri iştirak edirdilər?***

– Qərbi Azərbaycan Vilayətinin Kooperativ Otağının təşkilatçılığı ilə təşkil olunan bu sərgidə vilayətin ticarət və sənaye sahəsində fəaliyyət göstərən 20 şirkəti 36 növdə məhsul nümayiş etdirdi. Sərgidə çörəkbişirmə aparatı, polietilen su tankerləri, qablaşdırma və plastik qabların şişirtmə aparatları, tikinti materialları, alüminium profillər, kafel və seramika, sement və tol, konservlər, yeyinti məhsulları – düyü, çərəz, kənd təsərrüfatı və maldarlıq, orqanik bitki suları, əl işləri, uşaq intellektual oyunları və xalça məmulatları nümayiş etdirilirdi. Bunlardan əlavə, yol nişanlarının istehsalı sahəsində fəaliyyət göstərən "Jelve namaye Boukan" şirkəti də bu sərgidə iştirak etməklə öz keyfiyyətli məhsullarını sərgilədi.

***– Hörmətli Baş konsul, oxucularımız üçün də maraqlı olacağını nəzərə alaraq istərdik ki, bir məsələ haqqında məlumat verəsiniz. İranın Qərbi Azərbaycan Vilayətindən olan sahibkarlar Naxçıvandan hansı təəssüratlarla ayrıldılar? Sərginin təşkili, yaradılan şərait onları qane etdimi?***

– Qeyd etdiyim kimi, sərginin təşkili ilə birlikdə bəzi tədbirlər, xüsusilə hər iki tərəfin iş adamlarının iştirakı ilə iqtisadi forumun keçirilməsi, bəzi emal və istehsal müəssisələrinə baxış sərgidə iştirakla yanaşı, muxtar respublikanın istehsal sahələri və burada istehsal olunan məhsullarla tanış olmağa da imkan yaratdı. İranlı iş adamları isə bütün bunlardan razılıq etdilər. Naxçıvan Muxtar Respublikası əhalisinin bu sərgiyə rəğbəti və tarixi abidələrlə tanışlıq imkanının olması da xüsusi razılıq doğurmuşdur. Qərbi Azərbaycan Vilayətinin məsul şəxsləri və sərgi iştirakçıları gözəl Naxçıvan şəhərini xoş təəssüratlarla tərk etdilər. Onlar yaranmış əlaqələrin davamı kimi öz tərəf-müqabilləri ilə qarşılıqlı əməkdaşlıq edəcəklər.

***– Bu cür sərgilərin təşkili əlaqələrin inkişafı üçün hansı rola malikdir?***

– Qərbi Azərbaycan Vilayətinin Naxçıvan şəhərində keçirilən birinci "İstehsal və ixracat imkanları" sərgisi əslində 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının iş adamlarının İran İslam Respublikasının Urmiya şəhərində keçirdikləri sərginin davamıdır. Həmçinin hər iki tərəfin məsul şəxslərinin belə sərgilərin təşkilinin davam etdirilməsində maraqlı və istəkli olduqlarının göstəricisidir. Belə sərgilərin təşkili iqtisadi gəlirlərin artması və iş adamlarının daha da yaxınlaşmasından əlavə, həm də mədəniyyətlərin təbliği və tanıdılması, insanların yaradılmış imkanlardan bəhrələnməsi baxımından əhəmiyyətlidir. Sərginin açılış mərasimində çıxış edən Qərbi Azərbaycan Vilayətinin və Naxçıvan Muxtar Respublikasının məsul şəxsləri öz iradələrini ifadə edərək belə sərgilərin gələcəkdə də davam etdirilməsinin vacibliyini qeyd etdilər. Belə sərgilərlə yanaşı, icrası nəzərdə tutulan tədbirlərdən biri də iş adamlarının birgə görüşləridir ki, birinci belə görüş məhz bu sərgi ərəfəsində keçirildi. Ümid edirik ki, yaxın gələcəkdə qarşılıqlı iqtisadi turlar təşkil olunacaq, tərəflər öz imkan və potensiallarını nümayiş etdirəcəklər.

Mənə verilən imkandan istifadə edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri möhtərəm Vasif Talıbova əlaqələrin müsbət zəmində hərtərəfli inkişafına verdiyi dəstəyə görə minnətdarlıq edirəm.

**"Şərq qapısı"**

## Elektron xidmətlər əhalinin əmlak məsələlərinin həllində mühüm rol oynayır

***Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətimizin sosial-iqtisadi həyatına geniş nüfuz etmişdir. Son dövrlərdə yeni informasiya texnologiyalarının tətbiqi sahəsində görülən işlər əhaliyə bütün sahələr üzrə yüksək xidmət göstərilməsi ilə bərabər, dövlət qurumlarında da idarəçiliyin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaratmışdır. Görülən işlərin nəticəsidir ki, muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vasitəsilə əhaliyə göstərilən xidmətlərin keyfiyyəti yüksəldilmiş və vətəndaşların rahatlığının təmin edilməsinə nail olunmuşdur.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi bu sahədə qazanılan uğurların əsasını təşkil edir. Eyni zamanda informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində həyata keçirilən ardıcıl tədbirlər dövlət orqanları və vətəndaşların qarşılıqlı fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının imkanlarını bir daha ortaya qoyur. Görülən işlərin başlıca qayəsi dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətləri sadələşdirmək və şəffaflaşdırmaqdan ibarətdir.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən göstərilən xidmətlər də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada "Elektron hökumət" portalının fəaliyyətinin diqqət mərkəzində saxlanılmasının nəticəsidir ki, komitənin elektron xidmətlərinin təşkili məqsədilə portala müvafiq dəyişikliklər edilmişdir. Belə ki, vətəndaşların təklif edilən elektron xidmətlərdən rahat istifadəsini təmin etmək məqsədilə xidmətlər komitənin ***www.emlak.nakhchivan.az*** portalına yerləşdirilmiş və ***e-hokumet.nmr.az*** elektron hökumət portalına inteqrasiya olunmuşdur. Hazırda komitə fəaliyyət istiqamətləri üzrə əhaliyə 19 adda elektron xidmət göstərir. Əhali arasında daşınmaz əmlak və torpaq məsələləri üzrə müraciətlərin çoxluğunu nəzərə alsaq, vətəndaşların rahatlığını təmin etmək baxımından təklif edilən elektron xidmətlərin böyük əhəmiyyəti var. Vətəndaşlar internetin mövcud olduğu hər yerdən rahat şəkildə təklif olunan elektron xidmətlərdən yararlanmaqla yanaşı, müvafiq xidmətlər üçün tələb olunan dövlət rüsumunu və xidmət haqqını onlayn qaydada ödəyə bilərlər. Nəticədə, vətəndaşlar uzaq məsafə qət etmədən, əlavə xərc çəkmədən komitənin fəaliyyət istiqamətləri ilə bağlı onlayn qaydada müraciət edə bilərlər. Təklif olunan xidmətlərin aktuallığını nəzərə alaraq onların bəziləri haqqında məlumatları oxucuların diqqətinə çatdırırıq. Belə xidmətlərdən biri Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarışların verilməsi üçün sənədlərin qəbuludur. Xidmətin məqsədi daşınmaz əmlak üzərində yaranan hüquqların dövlət reyestrində qeydiyyata alınması və bu barədə çıxarışın verilməsindən ibarətdir. Bu xidmət vasitəsilə qanunla müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış müəssisələr tərəfindən keçirilən açıq hərracın nəticələrinə dair yekun protokol, daşınmaz əmlak barəsində notariat qaydada bağlanılmış əqdlər və vərəsəlik hüququ haqqında şəhadətnamələr əsasında daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün müraciətlərin və sənədlərin qəbul edilməsi, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra mərhələləri barədə bildirişlərin verilməsi həyata keçirilir.



Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün sənədlərin qəbulu xidməti elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra mərhələləri barədə bildirişlərin verilməsi ilə bağlı qaydaları müəyyən edir. Müraciət edənlərə elektron qaydada mövcud ünvan reyestri məlumat bazasından arayış, ünvan xəritələrindən çıxarış və digər ünvan məlumatları təqdim olunur.

Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün sənədlərin qəbulu xidməti daşınmaz əmlakın özgəninkiləşdirilməsi zamanı tələb olunan daşınmaz əmlaka dair məhdudiyyət (yüklülük) barədə arayışın verilməsini nəzərdə tutur. Bu xidmət vasitəsilə daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi üçün müraciətlərin elektron qaydada qəbul edilməsi, baxılması, sənədlərin hazırlanması, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi barədə təsdiqetmə bildirişinin verilməsi həyata keçirilir. Qeyd edək ki, bu xidmətin istifadəçilər üçün daha səmərəli olması istiqamətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə birgə işlər aparılıb. Xidmət tam hazır olduqdan sonra müraciət edənlər daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışları notariusda onlayn formada real vaxt rejimində əldə edə biləcəklər. Həmçinin vətəndaşların, fiziki və hüquqi şəxslərin notariusda rəsmiləşdirdikləri daşınmaz əmlaka dair təkrar bazarda alqı-satqı sənədləri onlayn rejimdə komitəyə göndəriləcək.

Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün sənədlərin qəbulu xidməti ipoteka ilə yüklü edilən daşınmaz əmlaka dair müqavilənin dövlət reyestrində qeydiyyatı və bu barədə çıxarışın verilməsini nəzərdə tutur. Bu xidmət növü notarial qaydada təsdiqlənmiş ipoteka müqaviləsi əsasında daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətlərin qəbul edilməsi, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi barədə bildirişlərin verilməsini təmin etmək məqsədi daşıyır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin qarşısında duran əsas vəzifələrdəndir. Buna görə də komitə tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin yüksək səviyyədə təmin olunması daim diqqət mərkəzində saxlanılır. Yaxın gələcəkdə komitənin fəaliyyət istiqamətləri üzrə yeni elektron xidmət növlərinin işə salınması da nəzərdə tutulmuşdur. Xidmətlərdən istifadə zamanı əlavə sual yaranarsa, ətraflı məlumat almaq üçün komitənin ***emlak@nakhchivan.az*** elektron poçt ünvanına müraciət etmək mümkündür. Elektron poçt ünvanına edilən müraciətlər komitənin müvafiq mütəxəssisləri tərəfindən operativ cavablandırılır. Məqsədimiz muxtar respublikamızda əmlak və torpaq məsələləri ilə bağlı problemlərin həllində şəffaf, çevik və səmərəli xidmət göstərməklə əhalinin rahatlığının təmin edilməsinə töhfə verməkdir.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***




## Floranın zənginləşdirildiyi və qorunduğu ünvan

*Yaşadığımız dünya çox gözəldir, əsrarəngiz və maraqlıdır. Biz zəngin və füsunkar bitkilər aləminin, vəhşi heyvanlardan tutmuş ən xırda həşəratlara qədər saysız-hesabsız canlıların əhatəsindəyik. Əslində, Yer kürəsi adlandırdığımız planetin məzmunu da elə ən şüurlu və ən ali varlıqlar olan insanlarla bizi əhatə edən təbiətin bir ahəngdarlıq yaratmasıdır. Bunun üçün təbiəti qorumaq hər birimizin borcudur. Çünki təbiəti qorumaq həm də sağlamlığımızı qorumaqdır. Bu baxımdan AMEA Naxçıvan Bölməsinin tərkibində fəaliyyət göstərən, nadir bitkilərin və ağacların qorunduğu Nəbatat bağını xüsusi vurğulamaq lazımdır.*





Qeyd edim ki, hər hansı bir ölkəyə, şəhərə səyahət edərkən internet üzərindən oranın gəzməli-görməli yerlərini müəyyən edirik. Rusiya, Gürcüstan, Türkiyə, Yunanıstan kimi ölkələrin gəzməli-görməli yerləri arasında Nəbatat bağları özünəməxsus yer tutur.

AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Tariyel Talıbov bir məqaləsində Nəbatat bağlarının əhəmiyyətindən bəhs edərək yazır: "Urbanizasiya və sənayeləşmənin sürətli inkişafı ilə əlaqədar olaraq Nəbatat bağları təbii ərazilərdən uzaqda yaşayan şəhər əhalisinə təbiətin bir parçasını göstərir, qısa bir zaman da olsa, insanların stresdən, səs-küydən uzaqlaşmasına və mədəni istirahətinə şərait yaradır".

Məlumat üçün bildirək ki, Nəbatat bağlarının ən qədim nümunələrinə Çində və Aralıq dənizi sahili ölkələrində rast gəlinir. Bu bağlarda meyvə ağacları, tərəvəzlər, dərman istehsalında lazım olan bitkilər becərilmiş və onlardan istifadə edilmişdir.

Naxçıvan Muxtar Respublikası zəngin bitki örtüyü, heyvanlar aləmi və təbii sərvətlərə malik olan diyardır. Bu baxımdan burada Nəbatat bağının yaradılması əhəmiyyətli və mühüm addımdır. Nəbatat bağının yaradılması məqsədilə 1972-ci ildə Azərbaycan EA-nın təşəbbüsü və Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə 10 hektar torpaq sahəsi ayrılmışdır. Həmin torpaq sahəsi Babək rayonunun Şıxmahmud kəndi yaxınlığındadır.

Bəs bu gün həmin ünvanda fəaliyyət necə qurulub? Burada hansı işlər həyata keçirilir?

Bu suallara cavab tapmaq üçün Nəbatat bağına üz tutduq.

Burada AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Teyyub Paşayevlə görüşüb həmsöhbət olduq.

Teyyub müəllim bildirdi ki, Nəbatat bağının yaradılmasında əsas məqsəd insanların Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmiş bəzi bitki növləri mövcuddur.

Teyyub müəllim bildirdi ki, muxtar respublikamızda fəaliyyət göstərən ali və orta ixtisas məktəbləri tələbələrinin, orta məktəb şagirdlərinin, xüsusilə bu sahədə mütəxəssis olmaq istəyənlərin bu bağla tanışlığı təşkil olunur. Bu həm onların ixtisaslarını yaxşı bilmək baxımından faydalıdır, həm də fərqli bitkilərlə yanaşı, Naxçıvanımızın bitkilər aləmi ilə tanışlıqlarına şərait yaradır.

Teyyub Paşayev Nəbatat bağında aparılan elmi-tədqiqat işləri barədə də məlumat verdi:

– Çalışırıq ki, yeni bitki növləri gətirək və Nəbatat bağını daha da zənginləşdirək. Naxçıvanın yaşıllaşdırılmasında yeni dekorativ ağac və kollar, efiryağlı və çiçəkli bitkilər tətbiq olunur. Nəbatat bağında dünyanın müxtəlif botaniki-coğrafi rayonlarından, o cümlədən Azərbaycan florasından xeyli sayda ağac, kol, çiçək və ot bitkilərinin kolleksiyası toplanmışdır. Gürcüstanın Batumi Nəbatat bağından 36 sayda ağac və kol bitkisi gətirilmişdir. Nəbatat bağında respublikamızda bitki ehtiyatlarının xammal bazasını zənginləşdirmək məqsədilə Azərbaycanda və xarici ölkələrdə bitən bəzək, dərman, efiryağlı və digər faydalı bitkilərin introduksiyası və iqlimləşdirilməsi, bitki genofondunun, o cümlədən nadir və nəsli kəsilməkdə olan bitkilərin çoxaldılması istiqamətində geniş elmi-tədqiqat işləri aparılır.

...Nəbatat bağında müxtəlif ölkələrin təbiətinə xas bir çox bitki və ağac növlərini gördük. Kofe ağacı, aqava, səhra bitkiləri, yunan qozu və sair bu kimi nümunələr göz oxşayırdı. Bununla birlikdə Azərbaycan florasına aid bir çox bitki və ağac növləri ilə də tanış olduq. Burada yerli meyvə genofonduna daxil olan müxtəlif növ alma, armud, üzüm, ərik sortları yetişdirilir və qorunur. Yabanı armud növlərinin yayılma zonaları dəqiqləşdirilmiş, bioloji məhsuldarlığı tədqiq edilmiş, Naxçıvan Muxtar Respublikası florası üçün yeni növlər verilmiş, bəzi növlər Nəbatat bağına köçürülərək biomorfoloji xüsusiyyətləri izlənilməyə başlanılmışdır.

Son illər Nəbatat bağında yeni inzibati bina istifadəyə verilmişdir. Burada işçilər üçün lazımi şərait yaradılmışdır.

*Qeyd edək ki, Nəbatat bağı təbiət gözəlliklərini duymaq, belə gözəlliklərin qədrini bilməklə yanaşı, şagirdlərdə və tələbələrdə botanika elminə marağın artırılması, institutun elmi fəaliyyətinin tanıdılması, bu istiqamətdə tədbirlərin keçirilməsi, alimlərin təcrübəsindən yararlanmaq kimi maraqdoğuran digər fəaliyyətlərin reallaşdırılması üçün son dərəcə əhəmiyyətlidir.*

✍ **Nərgiz İSMAYILOVA**

*Gəncliyimiz – gələcəyimiz*

## Zəhmət çəkən uğur qazanır

***Builki qəbul imtahanlarında yüksək nəticə göstərən gəncləri oxucularımızla yaxından tanış etməyə davam edirik. Bu dəfə haqqında söhbət açacağımız gənclər Şahbuz rayonunun ümumtəhsil məktəblərinin məzunlarıdır. Qeyd edim ki, rayonun ümumtəhsil məktəblərindən ali məktəblərə sənəd verən 139 abituriyentdən 92-si tələbə adını qazanıb. Onlardan 21 nəfəri 500-700 intervalında bal toplayıb. 6 nəfər 600 balı keçərək digər həmyaşıdlarından fərqlənib.***



***Vüsal HƏSƏNOV:*** – Orta təhsilimi Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə almışam. Bir gənc olaraq deyə bilərəm ki, rayonda təhsilə diqqət yüksək səviyyədədir. Bu səbəbdəndir ki, hər il rayonun məzunları qəbul imtahanlarında yüksək nəticə əldə edirlər. Belə nəticəni qazanmaq mənə də qismət oldu. 639 bal toplayaraq Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olundum. Uşaqlıqdan hərənin bir arzusu olduğu kimi, mənim də ən böyük arzularımdan biri həkim olmaq idi. Ağxalatlı insanlara hər zaman heyranlıqla baxmışam. Ancaq yüksək bal toplayaraq bu arzuma çata bilərdim. Özümə çox güvənirdim. Çünki müəllimlərimin verdiyi tapşırıqlarla yanaşı, özüm də əlavə kitablardan elmin sirlərinə yiyələnirdim. Çalışırdım ki, bilmədiyim nəsə qalmasın. İmtahanda suallarla tanış olanda düşündüm ki, çəkdiyim əziyyət boşa getməyib. Çətinlik çəkmədən sualları cavablandırdım. İmtahandan çıxanda artıq bilirdim ki, arzuma çatmağa çox az qalıb. İndi artıq tələbəyəm.



***İmamverdi BEHBUDLU:*** – Mən Yuxarı Qışlaq kəndində anadan olmuşam və orta təhsilimi həmin kənddə almışam. Digər həmyaşıdlarım kimi, mən də sevincliyəm. Əsas da valideynlərimin və müəllimlərin ümidlərini boşa çıxarmadığıma görə qürurlanıram. Hədəfim 600 balı keçmək idi. Bunu əldə etdim. Artıq Qafqaz Universitetinin Mexanika mühəndisliyi fakültəsinin tələbəsiyəm. Ali təhsilimi də bu cür uğurla başa vurmaq istəyirəm. Düşünürəm ki, seçdiyim peşəyə yiyələnmək üçün bundan sonra da əziyyət çəkməliyəm. Əsas yolu qət eləmişəm. Yüksək səviyyəli kadr kimi yetişməyimiz üçün ölkəmizdə gənclərə hər cür şərait yaradılıb. Məsuliyyətli illər isə qarşıdadır. Çətin yola qədəm qoyuruq. Seçdiyim ixtisasa yiyələnmək, zəngin bilik qazanmaq üçün böyük səylə çalışacağam. Bundan sonra da biliklərə mükəmməl və dərindən yiyələnmək mənim əsas vəzifəm olacaq.



***Aysu RƏŞİDZADƏ:*** – Çox sevincliyəm ki, yüksək nəticə göstərən tələbələr sırasındayam. İndi tələbə olmaq heç də çətin deyil. Çünki yaxşı təhsil almaq üçün hər cür şərait yaradılıb. Bu gün rayonumuzun hər kəndində müasir məktəb binası var. Gələcəyini fikirləşən hər bir gənc bu şəraitdən düzgün istifadə edərək uğur qazana bilər. Yaxşı haldır ki, rayonumuzda, demək olar ki, gənclər arasında böyük bir rəqabət mövcuddur. Mən tələbə adını qazanacağıma inanırdım. Ancaq məqsədim həm yüksək bal toplamaq, həm də seçdiyim ixtisasa qəbul olunmaq idi. Xarici dillərə çox böyük həvəsim olub. İngilis dili müəllimi olmaq istəyirdim. 611 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olundum. Arzuma çatdığım üçün sevinirəm.



***Şəfa KƏRİMOVA:*** – Aşağı Qışlaq kənd tam orta məktəbinin məzunuyam. Məktəbimizin yeni binası istifadəyə veriləndə səkkizinci sinifdə oxuyurdum. Müasir məktəb binasında təhsil almaq bizim üçün böyük sevinc idi. Məktəbimizdə yaxşı təhsil almaq üçün bütün imkanlar vardır. Qəbul imtahanına tam hazır vəziyyətdə getdim. İmtahanlar şəffaf və obyektiv şəkildə keçdi. 602 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olundum. Bu, mənim üçün həyatda ən böyük uğurlardan biridir. Arzusunda olduğum həkimlik peşəsinə yiyələnəcəyəm. Uşaqlıqdan həmişə demişəm ki, insanlara adım kimi şəfa paylayacağam. Düşünürəm ki, seçdiyim peşə də ən məsuliyyətli peşələrdən biridir. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada yüksək bal toplamış tələbələrlə görüşündə biz gənclərə üzünü tutaraq dedi ki, cəmiyyətdə layiqli yer tutmaq, vətənə və millətə faydalı olmaq üçün bundan sonra da yaxşı təhsil almalı, öz üzərinizdə daim işləməli, mütaliə etməli, bilik və dünyagörüşünüzü artırmalısınız. Hər bir gənc mütəxəssis hansı ixtisas üzrə təhsil almasından asılı olmayaraq, birinci növbədə Azərbaycan dilini və tarixini öyrənməli, milli dəyərləri, azərbaycanlılara məxsus adət-ənənələri dərindən mənimsəməlidir. Bu sözləri həmişə yaddaşımda saxlayaraq hərtərəfli biliyə malik bir gənc kimi təhsilimi başa vurmağa çalışacağam.

✍ **Sara ƏZİMOVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Təhsil sahəsində valideynlər hansı hüquq və vəzifələrə malikdirlər?***

***Cavab:*** Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Valideynlər də təhsil sahəsində müəyyən hüquq və vəzifələr daşıyırlar. Belə ki, "Təhsil haqqında" Qanunun 34-cü maddəsinə əsasən, valideynlər və ya digər qanuni nümayəndələr yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək, təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq, təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək, təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək və qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək hüquqlarına malikdirlər.

Həmçinin övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq, övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, mil-li-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək və qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr daşıyırlar.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 661